Azərbaycan Respublikasının
Mediаnın İnkişafı Agentliyi

## İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış

**Azad edilmiş ərazilərdə Azərbaycan tərəfindən bu gün kifayət qədər genişmiqyaslı abadlıq-quruculuq işləri həyata keçirilməkdə, innovativ layihələr reallaşdırılmaqdadır. Bu həm də onun təsdiqidir ki, Qarabağ münaqişəsi tarixin arxivinə qovuşandan sonra Azərbaycan yeni və daha sürətli inkişaf yoluna qədəm qoyub.**

# Azərbaycan Qarabağ ermənilərinin yaşadığı ərazilərdə də abadlıq-quruculuq işlərinə start verəcək



Məhz bu fonda da işğal dönəmində xarabazara çevrilmiş torpaqlarımızda erməni təcavüzünə son qoyulduqdan sonra əsl canlanma müşahidə olunur.

### Qarabağa dair böyük sülh razılaşması üzərində işlər intensivləşib...

Azərbaycan bunlara paralel olaraq Qarabağda Rusiya sülhməramlı qüvvələrinin məsuliyyət zonasında qalan ərazilərlə də bağlı mühüm layihələrə start verməyə hazırlaşır. Bunun üçün artıq müvafiq zəmin də hazırlanır. Söhbət Qarabağa dair böyük sülh razılaşmasından gedir.

Xatırladaq ki, Vətən müharibəsi başa çatdıqdan sonra Azərbaycan ən yüksək səviyyədə Ermənistanla sülh müqaviləsi üzərində işləməyə, həmçinin sərhədlərin delimitasiyası və demarkasiyasına dair müzakirələrin başlamasına hazır olduğunu bəyan edib. Ölkəmizin bu mövqeyi bir daha Azərbaycanın regionda sülh, mehriban qonşuluq tərəfdarı olmasının real ifadəsidir. Dünya miqyasında da belə yanaşma hakimdir ki, Cənubi Qafqaz regionunda sülhün bərqərar olması vacibdir. Bunu Ermənistan da qəbul etməli və bilməlidir ki, sülhə, əməkdaşlığa qarşı yönəlmiş istənilən cəhd sonda iflasa məhkumdur. Çünki Ermənistanın Azərbaycana qarşı çıxmaq üçün əvvəlki qaydada nə hərbi gücü, nə də digər potensialı var. Ermənistan özü də qəbul etməyə başlayır ki, onun perspektiv inkişafı bilavasitə Azərbaycanla, Türkiyə ilə münasibətlərin normallaşmasından, qarşılıqlı əməkdaşlıq əlaqələrinin yaradılmasından asılıdır. Bu səbəbdən rəsmi İrəvan Azərbaycanla sülh müqaviləsini imzalamağı, ölkəmizin ərazi bütövlüyünü tanımağı tezləşdirməlidir. Fransanın Ermənistana yeni təyin edilmiş səfiri Ann Luyonun açıqlamalarından belə məlum olur ki, İrəvan artıq qeyd edilən istiqamətdə müvafiq addımlar atmağa hazırlaşır. Onun sözlərinə görə, ATƏT-in Minsk Qrupunun həmsədrləri Qarabağa dair böyük sülh razılaşması üzərində işləyirlər. Düzdür, səfir təfərrüatları açıqlamayıb, amma onu da etiraf edib ki, Fransa Rusiya və ABŞ-la birlikdə Qarabağa dair uzunmüddətli razılaşmanın əldə edilməsi üzərində işi davam etdirir. Onun sözlərinə görə, prosesdə Minsk Qrupunun hər üç həmsədr-ölkələrinin iştirakı vacibdir: "Bilirsiniz, mən burada, Ermənistandayam, ATƏT-in Minsk Qrupunun işində iştirak etmirəm. Amma mənim həmkarım var - Stefan Viskonti, o, Fransanın Minsk Qrupunda nümayəndəsidir. Mən sizə bunu deyə bilərəm ki, Nyu-Yorkda xarici işlər nazirlərinin görüşündə irəliləyiş əldə olunub, biz Minsk Qrupunun digər həmsədrləri ilə birlikdə məmuniyyətlə iki xarici işlər nazirinin görüşünü təşkil etdik. Ümid edirik ki, buna bənzər başqa qərarlar da olacaq. Və mən sizi əmin edə bilərəm ki, rusiyalı və amerikalı həmkarlarımızla birlikdə Qarabağa dair daha uzunmüddətli razılaşmanın əldə edilməsinə hədəflənmiş prosesin irəli aparılması üzərində işləyirik".

Hesab edilir ki, sülh razılaşmasının imzalanması həm Ermənistan, həm də Qarabağ erməniləri üçün olduqca vacibdir. Çünki Azərbaycanın və Türkiyənin ərazi bütövlüyünü tanıması, əsassız iddialarından əl çəkməsi, beynəlxalq hüquq normaları çərçivəsində sərhədlərin delimitasiya və demarkasiyasını həyata keçirməsi, nəqliyyat-kommunikasiya xətlərinin, xüsusən də Zəngəzur dəhlizinin açılması Ermənistan üçün əsas və yeganə xilas yoludur. Ermənistan onu da qəbul etməlidir ki, Azərbaycan-Türkiyə tandemi regionda həlledici amildir. Bu tandem davamlı olaraq güclənməkdədir və belə gedişlə o, qlobal miqyasda da həlledici söz sahibi olacaq. Bu gün Ermənistanda real əhalinin sayı iki milyondan azdır və bu gedişlə o, daha da azalacaq. Çünki ölkədə məşğulluq səviyyəsi çox aşağıdır, iş yoxdur. Azərbaycanın işğal faktını aradan qaldırması fonunda Qarabağda çox məhsuldar torpaqlardan məhrum olan Ermənistanı daha böyük problemlər, ərzaq qıtlığı gözləyir. Bununla bağlı Ermənistanda artıq həyəcan təbili çalınır. Bu problemlərdən yeganə çıxış yolu Ermənistanın Azərbaycan və Türkiyə ilə münasibətlərini mümkün qədər tez normallaşdırmasıdır. Bütün bunlardan sonra Ermənistan inkişaf yoluna çıxa, Qarabağ erməniləri isə üzləşdikləri problemlərdən xilas ola bilər.

### Rusiya sülhməramlı qüvvələrinin məsuliyyət zonasında qalan əraziləri də ölkəmiz cənnətə çevirəcək…

Təbii ki, sülh razılaşmasının imzalanmasından sonra Azərbaycan, yuxarıda qeyd olunduğu kimi, Qarabağda Rusiya sülhməramlı qüvvələrinin məsuliyyət zonasında qalan ərazilərdə də abadlıq-quruculuq işlərinə start verəcək. Bu, həm orada erməni əsilli Azərbaycan vətəndaşlarının iş və digər problemlərinin həllinə imkan verəcək, həm də işğaldan əvvəl həmin yerlərdə yaşayan azərbaycanlıların geri qayıdışı üçün lazımı şərait formalaşdıracaq. Təbii ki, bu gedişat yaxın illər ərzində həmin yerlərin belə demək olarsa, cənnətə çevrilməsilə nəticələnəcək. Ölkənin digər bölgələrində olduğu kimi Qarabağda Rusiya sülhməramlı qüvvələrinin məsuliyyət zonasında qalan ərazilərdə eyni sürətlə quruculuq-abadlıq işləri həyata keçiriləcək.

Burada bir məqamı yenidən xatırlatmaq lazım gəlir ki, Qarabağda quruculuq işlərinin aparılması üçün 2021-ci ilin dövlət büdcəsindən 2,2 milyard manat vəsait ayrılıb. Həmin vəsaitin böyük hissəsi artıq sərf edilib. Bununla yanaşı, işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsi məqsədilə Azərbaycan digər addımlar da atır. Bundan başqa, bir sıra xarici ölkələr işğaldan azad olunmuş ərazilərimizin bərpası prosesində iştirak etmək niyyətlərinibildiriblər. Yüksək və müasir standartlarla həyata keçirilən bərpa-quruculuq işləri Qarabağda qalan ermənilər də görür. Onlar şahidlik edir ki, Azərbaycan azad olunmuş ərazilərin yeni nəfəs, yeni həyat gətirir. Vahid Azərbaycan dövləti inamla inkişaf edir və bərpa-quruculuq işləri müvəffəqiyyətlə həyata keçirilir. İndi bu prosesdə iştirak ermənilər üçün də xüsusi maraq kəsb edir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**

Bakı Xəbər.- 2021.- 14 oktyabr.- S.10.